# Türkdilli xalqların birliyi TÜRKSOY-un əsas məqsədidir

***1993-cü il iyulun 12-də Qazaxıstanın Almatı şəhərində TÜRKSOY-un yaradılması haqqında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyənin mədəniyyət nazirləri tərəfindən protokol imzalanmışdır.***

Bu təşkilatın yaradılmasının zərurəti ondan ibarət idi ki, təşkilatçı ölkələrin dilləri, xalqları, mədəniyyətləri bir-birinə çox yaxındır. TÜRKSOY-un yaradılmasında əsas olaraq mənşə və dil ümumiliyi prinsipinə üstünlük verilib. Yəni təşkilat dil birliyi üzərində qurulub. TÜRKSOY-un əsas üzvləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistandır. Qalan 8 üzv isə (Rusiya Federasiyasına daxil olan Altay, Başqırdıstan, Xakas, Saxa-Yakut, Tuva və Tatarıstan Respublikaları, Qaqauz Muxtar Vilayəti (Moldova) və Şimali Kipr Türk Respublikası) təşkilatın işində əsasən, müşahidəçi qismində iştirak edirlər. Amma təşkilatda hər bir üzv bərabər hüquqa malikdir.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının Rusiyadakı səfiri, keçmiş Mədəniyyət naziri, Xalq artisti, professor Polad Bülbüloğlu 1993-2006-cı illərdə TÜRKSOY-un ilk baş katibi olub. Hazırda bu təşkilata Qazaxıstanın keçmiş Mədəniyyət naziri, professor Düsen Kaseinov rəhbərlik edir.

Təşkilatın fəaliyyət dairəsi çox genişdir. Sibirdən Balkanlara qədər olan coğrafiyadakı ortaq mədəniyyətimiz bütün rəngləri ilə dünyada təmsil və təbliğ edilir. Bu illər ərzində rəssamlar, yazıçılar, şairlər, heykəltəraşlar, fotoqraflar, teatr və kino sənətçiləri, incəsənət nümayəndələri TÜRKSOY-un tədbirlərində bir-biriylə tanış olub, əlaqələr qurublar.

Azərbaycanla əlaqələr isə ildən-ilə genişlənməkdədir. Bu təşkilatın xətti ilə 2012-ci il "Mirzə Fətəli Axundzadə ili" , 2017-ci il isə "Molla Pənah Vaqif ili" elan olunmuşdur. 2012-ci ildən etibarən türk dünyasının önəmli tarixi və mədəni şəhərləri türk dünyasının mədəniyyət paytaxtı elan olunur. Bu tədbirlər vasitəsilə dahi şəxslərimiz və mədəniyyət paytaxtlarımız həm qardaş xalqlarımız arasında, həm də dünyada daha geniş tanıdılır. 2016-cı ildə TÜRKSOY Daimi Şurasının qərarı ilə Şəki şəhəri türk dünyasının mədəniyyət paytaxtı elan olundu. Tarixi İpək yolu üzərində yerləşən və zəngin mədəniyyətin canlı simvolu olan Şəkinin mədəniyyət paytaxtı elan edilməsi "Multikulturalizm ili"nə gözəl töhfə idi.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabrın 17-də imzaladığı sərəncamla Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin anadan olmasının 100 illik yubileyi qeyd olundu. TÜRKSOY-un qərarı ilə 2018-ci il "Qara Qarayev ili" elan edildi. Bu çərçivədə böyük işlər görüldü. 2018-ci il fevralın 14-də Ankarada, TÜRKSOY-un iqamətgahında "Qara Qarayev ili"nin açılış mərasimi keçirildi.

"Qara Qarayev ili" çərçivəsində 2018-ci il ərzində TÜRKSOY-a daxil olan Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və digər türkdilli ölkələrdə də görkəmli sənətkarın yubiley ilə bağlı silsilə tədbirlər təşkil olundu.

Təşkilat türk mədəniyyətini, ədəbiyyatını, incəsənətini tanıtmaq məqsədilə möhtəşəm işlər görür, 1994-cü ildən başlayaraq zəngin ümumtürk mədəniyyətinin təbliği və dünyaya tanıdılması istiqamətində mühüm layihələrə imza atır.

Türkçülük ideyası beş ortaq abidəmizdə – Orxon yazılarında, "Kitabi-Dədə Qorqud"da, "Divani-lüğət-it-türk"də, Yusif Balasaqunlunun "Qutadqu-bilik" poemasında, Xoca Əhməd Yasəvinin hikmətlərində öz əksini tapmışdır.

TÜRKSOY türk xalqlarının qardaşlığını, dilbirliyini, ortaq türk mədəniyyətini gələcək nəsillərə çatdırmaq üçün önəmli bir missiya daşıyır. TÜRKSOY türkdilli xalqlar arasında güclü bağlar qurur. Böyük şəxsiyyət olan İsmayıl Qaspiralının "Dildə, fikirdə, işdə birlik" ideyası bu gün türk dünyasının UNESCO-su hesab edilən TÜRKSOY tərəfindən inamla həyata keçirilir.

Ədəbiyyat, sənət, mədəniyyət sahələrində bir çox dəyərli işlərə imza atan, tarixdə iz buraxan böyük şəxsiyyətlərin əsərlərinin yalnız türk coğrafiyasında deyil, bütün dünyada tanıdılmasında, mədəniyyətimizin zənginləşməsində, dostluq və qardaşlıq bağlarının qurulmasında TÜRKSOY-un əvəzsiz xidmətləri var.

Tarixi İpək yolu üzərində yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Azərbaycan həm türk, həm də İslam mədəniyyətinə əvəzsiz töhfələr verən bir ölkədir: "İslam həmrəyliyi ili", Bakı Beynəlxalq Kitab Sərgi Yarmarkası TÜRKSOY-un iştirakı və dəstəyi ilə yüksək səviyyədə keçirilmişdir. "Dünya dillərində Molla Pənah Vaqif şeirləri" adlı kitab nəşr olunmuşdur.Vaqifin şeirləri Azərbaycan, qazax, qırğız, özbək, türk, türkmən, başqırd, tatar, ingilis, italyan, rus və Ukrayna dillərində nəfis şəkildə nəşr olunub. Bu kitablar XVIII əsrin böyük şairi, filosofu və dövlət xadimi Vaqifin xatirəsinə ən layiqli hədiyyədir.

"Dədə Qorqud"un 1300 illik, "Manas"ın 1000 illik, böyük tarixi şəxsiyyət Əmir Teymurun 660 illik, Məhəmməd Füzulinin 500 illik, Qazax şairi, filosofu Abayın 150 illik yubiley tədbirləri TÜRKSOY çərçivəsində həyata keçirilən layihələrdəndir. 2018-ci ildə Xalq yazıçısı, görkəmli ictimai xadim,Yazıçılar Birliyinin sədri Anar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) "Şərəf" medalı ilə təltif olunmuşdur.

2017–ci il dekabrın 7-də Azərbaycan Dövlət Pedaqoji Universitetində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) kafedrası açılmışdır. Bu kafedranın açılması türk dünyasının həmrəyliyi, birliyi, eləcə də türk ədəbiyyatının, tarixinin, mədəniyyətinin elmi tədqiqi və təbliği istiqamətində mühüm əhəmiyyət daşıyır. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının baş katibi, professor Düsen Kaseinov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov və başqaları universitetdə TÜRKSOY-un kafedrasının açılmasının bu istiqamətdə atılan vacib addımlardan biri adlandıraraq respublikamızdakı ali təhsil müəssisələri arasında ilk dəfə məhz bu universitetdə yaradılmasını böyük hadisə adlandırmışlar.

Bir məsələni xüsusilə vurğulamaq vacibdir. Belə ki, bu beynəlxalq təşkilat 44 günlük Vətən müharibəsində Azərbaycanı həmişə dəstəkləmişdir. İşğaldan azad edilmiş ərazilərdə yerlə -yeksan edilən tarix və mədəniyyət abidələrimizlə bağlı məlumatları vaxtaşırı olaraq dünya ictimaiyyətinə çatdırmışdır.

TÜRKSOY tərəfindən 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanda yaşanan tarixi hadisələri, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə obyektiv çatdıran və yayımlayan yerli və xarici media təmsilçilərinə "TÜRKSOY Media Mükafatı" təqdim edilmişdir. Mükafatı alanlar sırasında şəhid jurnalistlər – AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AZTV-nin operatoru Sirac Abışov da var idi.

Bu beynəlxalq təşkilatla ölkəmizin əlaqələrinin genişləndirilməsi mədəniyyətimizin türkdilli ölkələrə inteqrasiyasında əhəmiyyətli rol oynayır.

***Hazırladı: M.MÜKƏRRƏMOĞLU,***

Xalq qəzeti.- 2021.- 12 oktyabr.- S.15.